# Ələşrəf Şayanın lirik və epik yaradıcılığı

**Kamil Adışirinov**
*filologiya üzrə fəlsəfə doktoru,*
*ADPU-nun Şəki filialı*
**E-mail:** Kamil.adisirinov@mail.ru

**Rəyçilər:** filol.ü.f.d., dos. Ş.N. Hümbətova,
filol.ü.f.d. X.F. Abdullayeva

**Açar sözlər:** nəsr, hekayə, təmsil, ədəbi mühit, lirika, satira, metafora, epitet, ədəbi məclis
**Ключевые слова:** проза, басни, литературная среда, лирика, сатира, метафора, епитет, литературное собрание
**Key words:** prose, story, literary condition, lyric, satire, metaphora, epitet, literary conference

XX əsrin 40-90-cı illərində Şəki ədəbi mühitinin tanınmış nümayəndələrindən biri əsərlərini "Şayan" təxəllüsü ilə yazan Ələşrəf Məmmədov olmuşdur. 50-70-ci illərdə "Səbuhi" ədəbi məclisinin formalaşmasında mühüm xidmət göstərmiş bu istedadlı qələm sahibi əsərlərini lirik və epik növün müxtəlif janrlarında yazmışdır. Yazıçının yaradıcılıq fondunda qoşma və gəraylı janrında yazılmış vətənpərvərlik, ictimai-siyasi, məhəbbət, təbiət mövzularında şeirlər, satirik ruhlu əsərlər, təmsillər diqqəti daha çox cəlb edir.

Vətənpərvərlik mövzusu Ələşrəf Şayanın yaradıcılığında aparıcı yer tutur.

Onun şeirlərindən doğma Vətəni Azərbaycanı həmişə azad görmək istəyən, tərənnümündən doymayan şair-ziyalı nəfəsi duyulur. Şairin "Azərbaycan" [1; 16;], "Sevirəm mən" [1], "Vətən görürəm" [1], "Dostlar" [1] və s. kimi şeirləri yüksək vətənpərvərlik duyğusu ilə yazılmışdır. "Sevirəm mən" [1] şeirini Ə.Şayanın proqram əsəri kimi qiymətləndirmək olar. Şair səkkiz bənd daxilində yüksək insani duyğularını ipə-sapa inci kimi düzmüşdür. Bu şeir oxucunun gözləri qarşısında zəngin qəlbə malik bir şair-müəllim canlandırır:

Bahar çəksin əlvan xalı,
Bəzəndirsin yamac-yalı,
Soyuqbulaq və Marxalı,
Kaman-tarı sevirəm mən.

Müəlliməm işim çətin,
Şagirdlərim var-dövlətim,
El yanında var hörmətim,
Etibarı sevirəm mən [1, s. 57-58; 9].

Şairin vətənpərvərlik motivli lirikasında ölməz S.Vurğun yaradıcılığına məhəbbətin ifadəsi olan "Azərbaycan" [1; 16;] şeiri mühüm yer tutur. Şair sadə, obrazlı bir şəkildə oxucusuna sevimli Vətənini, onun gözəl, füsunkar təbiətini təqdim edir. Dahi S.Vurğundan fərqli olaraq Ə. Şayan Azərbaycanın vəsfi üçün şeirin səkkiz misralıq bənd formasını seçmişdir.

A dostlarım, nə gözəldir,
Çəmənzardır Azərbaycan.
Ellər sevir öz canı tək,
Bəxtiyardır Azərbaycan.
Özü cavan, yaşdan isə,
İxtiyardır Azərbaycan.
Könüllərə nəşə saçan,
Novbahardır Azərbaycan [1, s. 27; 16].

Məlumdur ki, göllərin, çayların, meşələrin, yaylaqların tərənnümü poeziyada və nəsrdə yaradıcının millilik göstəricisidir. Ələşrəf Şayanın "Göy göl" [1] şeiri bu baxımdan diqqətəlayiqdir. Poeziya tariximizdən bilirik ki, "Göy göl" adlı şeir siyasi lirikanın nümunəsi kimi repressiya ədəbiyyatımızın görkəmli nümayəndəsi Əhməd Cavadın da yaradıcılığında vardır və şair məhz bu şeirə görə həbs edilmişdi. Ə.Şayanın "Göy göl" şeirini Ə.Cavada orijinal nəzirə kimi qiymətləndirə bilərik. Göy gölu yurduna yaraşıq sanan şair yazır:

Dağların qoynunda sönməz işıqsan,
Sən ana yurduma bir yaraşıqsan,
Hey artır şöhrətin keçdikcə zaman,
Hər kəsə doğmasan, hər kəsə əziz,
Adi bir daşın da xoş gəlir, Göy göl [1, s. 61-62].

Şair təbiət lirikasında durna obrazına da yer vermişdir. Bu baxımdan "Durnalar" [1;2] adlı şeiri diqqətəlayiqdir. Durnalara müraciət ədəbiyyatımızda yeni deyildir. Anadilli şeir tariximizdə Vidadi, Vaqif, Zakir, R.Əfəndiyev, S.Rüstəmin yaradıcılığında "Durnalar" adlı şeirlər vardır. Lakin yuxarıda adlarını çəkdiyimiz sənətkarların yaradıcılığında "durna" obrazı siyasi məzmunda (Məs: Q.Zakir və S.Rüstəmdə) verilmişdirsə, Ə.Şayanın yaradıcılığında siyasi məzmundan kənardır və baharın müjdəçisi kimi təsvir edilmişdir:

Mavi göydə görünərkən dəstəniz,
Sevinc gəlir könüllərə, durnalar!
Oxuduqca şirin-şirin nəğməniz,
Mən aşiqəm o dillərə, durnalar! [1, s. 83-84;2]

Ələşrəf Şayanın lirikasında gəncliyin ilham mənbəyi olan məhəbbət mövzusu diqqəti çox az cəlb edir. Şair "Etiraf" [1] adlı şeirində məhəbbətdən az yazmasının səbəbini aşağıdakı kimi açıqlamışdır:

Əgər məhəbbətdən az yazmışamsa,
Sanmayın, a dostlar, az yanmışam mən,
Yanğısı güclüdür ilk məhəbbətin,
Azı minbir dəfə odlanmışam mən [1, s.79].

Şeirdən çıxan nəticə budur ki, şairin ilk məhəbbəti ağır müharibə illərinə düşmüş,

uğursuzluqla nəticələnmişdir. Şair bu uğursuzluğu əks etdirərək şeirin sonrakı bəndində yazır:

Ömrün odlu çağı odlarda keçdi,
Gülü açılmadı ilk məhəbbətin.
İlk görüş çevrilib son görüş oldu.
Sirdaşı kəsildi əbədiyyətin [1, s. 79].

Lakin bunlarla yanaşı şairin arxivində məhəbbət lirikasını səciyyələndirən “Gözlərin” [1], “Yadigar” [1], “Yadıma düşdü” [1] kimi şeirlər diqqətçəkicidir. “Gözlərin” şeiri dil sadəliyi, məzmun baxımdan daha poetikdir:

Neyləyim çoxdandır vurğunuyam mən,
Çatma qaş altında qara gözlərin.
Gözlərin gözümə sataşanda, qız,
Vurur sinəm üstə yara gözlərin [1, s. 63-64].

“Sual” [1] şeirində şair nazlı gözəlləri şair üçün əsas ilham mənbəyi sanır:

İşvəli danışan, işvəli gülən,
Süzgün baxışları ürəklər dələn,
Şairi anlayan, sənəti bilən,
Sultanı olmasa yaza bilərmi? [1, s. 102].

Torpaqlarımızın erməni tapdağı altında olduğu bir şəraitdə şairin gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində mühüm rol oynayacaq şeirləri də vardır. Şair “Soruş” [1; 11] adlı şeirində torpağın müqəddəsliyini, onun əzizliyini, Vətən sərhədlərinin toxunulmazlığını qorumağı gənc nəslə müqəddəs vəzifə kimi tapşırır:

Hər qarış torpağın əzizliyini,
Yağıya qumbara atandan soruş,
Moskva altında, Leninqradda,
Düşməni atəşə tutandan soruş.

Anmadıq döyüşün dəhşətlərini,
Qoruduq Vətənin sərhədlərini,
Alçaq faşistlərin vəhşətlərini,
Hər torpaq altında yatandan soruş [1, s. 84-85; 11].

50-70-ci illərdə satirik poeziya, M.Ə. Sabir satira yolunun davamçılığı Şəki ədəbi mühitində əhəmiyyətli şəkildə diqqəti cəlb edir. Cəmiyyətin ictimai qüsurlarına biganə qala bilməyən istedadlı qələm sahibləri satira sahəsində də özlərini sınayaraq bir-birindən maraqlı nümunələr yaratmışlar. Satirik poetik ruh Ə.Şayanın yaradıcılığında da özünü göstərmişdir. Şairin “Nə çətin oldu?” [1], “Ərizə” [1;12]. “Hayıf ki, çoxdur” [1], “Neyləyə billəm?” [1;10], “Məsləhət” [1], “Fərasətli rəis” [1],“Niyə deyir?” [1] şeirlərində yüksək satirik ruh hakimdir.

“Nə çətin oldu?” [1] satirasında şair vicdanlı əməkdən qaçan bir məmur surəti yaradaraq onu satirik monoloji dillə tənqid etmişdir:

Mən ki, nərmə-nazik adamlardanam,
Əkinlə-biçinlə olmamış aram,
Zərrəcə yuxuma qatmaram haram,
İslanmaq, qovulmaq qismətim oldu [1, s. 108].

"Ərizə" [1; 12] satirasında dövlət idarələrindəki süründürməçilik realist şəkildə qələmə alınmışdır. Satirada göstərilir ki, mənzil almaq üçün ərizə verən bir gənc qız, artıq nənədir, ancaq hələ də mənzil ala bilməmişdir:

Bir az fikrə daldı rəis,
Ərizəmi aldı rəis,
Siyirtməyə saldı rəis:
- Mənzil olar, ay gözəl qız,
- Növbəylədir bizdə yalnız.

Çox çalışdım, çox zəng etdim,
Qulağını lap dəng etdim,
İdarəyə bir də getdim:
- Rəis, matam mən bu hala!
- Növbənə var hələ, xala.

Hey gözlədim, zaman keçdi,
Ümid söndü, güman keçdi.
Dedim rəis, dövran keçdi,
- Nə vaxt olar mənzil mənə?
- Arxayın ol, əziz nənə [1, s. 105-106; 12].

Şairin satirik yaradıcılığında tənqidin tündlüyü baxımdan "Hayf ki, çoxdur" [1] satirası daha diqqətəlayiqdir. Satira dahi M.P.Vaqifin "Hayıf ki, yoxdur" qoşmasına nəzirə təsiri bağışlayır. Vaqifin "Hayıf ki, yoxdur" qoşmasında təəssüf hissi güclüdürsə, Ə.Şayanın "Hayıf ki, çoxdur" satirasında təəccüb hissi güclüdür. Sovet qanunlarının tüğyan etdiyi bir zamanda küçələrin bərbad vəziyyəti, əhalinin sudan çəkdiyi əzab-əziyyət, möhtəkirlərin bazarlarda at oynatmağı, nəqliyyat sistemində olan qaydasızlıq şairi təəccübləndirib satirik qələmə əl atmağa məcbur edir, nəticədə zamanın iç üzünü açan bu bədii nümunə yaranır:

Gözəl, binaları var şəhərimin,
Palçıqlı yolları hayıf ki, çoxdur.
Küçədə suların qurşağa qədər,
Göllənmə halları hayıf ki, çoxdur.

Biletsiz işləyən avtobusların,
Gəlir xalturası hey narın-narın,
Kolxozçu adında bizim bazarın,
Başqa xiridarı hayıf ki, çoxdur [1, s. 111].

Şair baş alıb gedən qaydasız alver dünyasını, möhtəkirliyi, alıcıların aldadılmasını, nəzarət sisteminin yoxluğunu "Neyləyə billəm?" [1;10] adlı satirasında realist boyalarla vermişdir. Ələşrəf Şayan möhtəkirin mənfur simasını oxucusuna onun öz dili ilə çatdırır:

Gündə bir yüzlüyə ehtiyacım var,
Daşbaşım olmasa, neyləyə billəm?.
Manatlıq alverdən mən biçarəyə,
Abbası qalmasa, neyləyə billəm?.

Tərəzi qapazsız işləyən zaman,
Ovqatım təlx olur, halıma inan,
O "leviy" malların kalan pulundan,
Ciblərim dolmasa, neyləyə billəm? [1, s. 104-105; 10].

Bu satirik şeirlə bağlı "İnşaatçı" qəzetində dərc olunmuş "Şeirdə həyatın nəfəsi duyulmalıdır" adlı məqalədən aşağıdakı sətirləri oxuyuruq: "Ə.Şayanın "Neyləyə billəm?" satirik şeiri ona görə müvəffəqiyyətli çıxıb ki,müəllif dələduz, fırıldaqçı satıcını öz sözləri ilə ifşa edə bilmiş, tənqid hədəfi üçün tutarlı ifadələr, kəskin, eyni zamanda mənfi surətin hərəkətlərində ikrah oyadan misralar tapıb, onları yerində işlətmişdir" [17].

Ələşrəf Şayanın "Məsləhət" [1] satirasında da rüşvətxorluq, idarə rəhbərlərinin, mühəndislərin eybəcər siması işıqlandırılır. Əhalinin mənzil problemlərinin qanuni həllinin rüşvət üzərində qurulmasını şair böyük ustalıqla Mənzil İstismar İdarəsinin baş mühəndisi ilə sifarişçi oğlan arasında gedən mükalimədə açıqcasına göstərmişdir:

Baş mühəndis baxdı evə,
Dedi: "Tamam zaydı, oğlan,
Təcili sat, ərizə ver,
Olmamağa taydı, oğlan.

Niyyətindən dönmə geri,
Ürəkli ol, möhkəm yeri,
İkicə min ötür bəri,
Rəis üçün paydı, oğlan [1, s. 106-107].

Şairin satirik manerası özünü təmsillərində daha qabarıq göstərmişdir. Təmsil yaradıcılığı mövcud vəziyyəti mənalandırmağa geniş üfüqlər açdığından XX əsr Şəki ədəbi mühitində yazıb-yaradanların əksəriyyətinin yaradıcılığında cəmiyyətdəki yaramazlıqları, çatışmazlıqları tənqid etmək üçün bu janra geniş müraciət olunmuşdur. Görünür, "ədalətli" sovet qanunlarından çəkinən qələm sahibləri təqib olunmaq təhlükəsindən yayınaraq qapalı tənqidə keçmişlər. Ə.Şayan da özünün təmsillərində bu üsuldan istifadə etmişdir.

Şair cəmiyyətdə müşahidə etdiyi mənfi tiplərə xas olan xüsusiyyətləri cansızların-heyvanların, bitkilərin, həşəratların üzərinə köçürərək onları şəxsləndirmə yolu ilə lakonik şəkildə tənqid etmişdir. Şairin "Qırxayaq iftixarı" [1; 13], "Toyuq zövqü" [1], "Qohumdur mənə" [1], "Xoruz andı" [1], "Xoruzlanan xoruz" [1], "Çaqqala xasiyyətnamə" [1], "Sarı Xurniyin öyünməsi" [1; 14;], "Kələz hədə-qorxusu" [1], "Tısbağa və Dovşan" [1] və s.

onlarla təmsillərində lovğalıq, mənəm-mənəmlik, rüşvətxorluq, yaltaqlıq, ikiüzlülük və s. kimi mənfi etik keyfiyyətlər tənqid edilmişdir.

“Çaqqala xasiyyətnamə” [1] adlı təmsilində yazıçı Çaqqal xislətli yaltaq insanların, Tülkünün şəxsində isə hiyləgər, rüşvətxor idarə rəhbərlərinin portretini cızmışdır. Təmsilin məzmununda göstərilir ki, çaqqal toyuq-cücə rüşvət verməklə Tülküdən Çaqqallığını həyata keçirmək üçün xasiyyətnamə alır. Təmsili müəllif çox maraqlı sonluqla bitirir. Zəhmətsiz qazanc əldə edən idarə rəhbərinin aqibətinin Tülkünün aqibəti kimi olacağına işarə edərək yazır:

Zəhmətsiz qazancından,
Məmnundur Tülkü lələ.
Bilmir ki, tülkülər də,
Bir gün keçir cəngələ [1, s. 122-123].

“Sarı Xurniyin öyünməsi” [1;14] təmsilində şair lovğa, “Kələz hədə-qorxusu” [1] təmsilində aravuran, söz gəzdirən insanları tənqid etmişdir. Təmsilçi “Qırxayaq iftixarı” [1;13] adlı təmsildə yaşadığı mühitdə cəmiyyət üçün yararsız insanları Qırxayağa bənzədərək onlardakı iftixar, qürur hissinin faydasızlığını tənqid etmişdir:

Görüb bal arısını,
Bir gün dedi Qırxayaq:
Öyünmə şöhrətinlə,
Gəl çox da sızıldama,
Milçəktək vızıldama,
Özün yaxşı görürsən,
Tamam başqa sayağam,
Cücülər zümrəsində.
Təkcə mən qırx ayağam [1, s. 114;13].

Ələşrəf Şayanın bədii yaradıcılığının mühüm hissəsini hekayələr təşkil edir. Yazıçının arxivində şeirlərlə yanaşı, hekayə, oçerk kimi müxtəlif həyati mövzulara həsr edilmiş nəsr nümunələri də diqqəti cəlb edir. Ələşrəf Şayanın nəsr yaradıcılığına konkret hansı ildə, hansı bədii nümunə ilə başlamasını deməkdə çətinlik çəkirik. Arxivində qorunub saxlanılan hekayələri yazılma tarixi üzrə aşağıdakı kimi qruplaşdırmaq olar: “Qərargah üzvü” (1953) [1], “Qoca kümçü və nəvəsi” (1954) [1; 4], “Həyat məktəbi”(1954) [1], “Yoldaşlıq”(1957) [1; 3; 7], “Vicdan əzabı” (1957) [1] (bu hekayənin 1953-cü ildə yazılmış variantı da arxivdə diqqəti cəlb edir) , “Zəhmət haqqı” (1959) [1], “İlk imtahan”(1960) [1;6;], “Ədəbiyyat ustası”(1960) [1], “Zaqsın qapısında” (1962) [1], “Nənənin qeydləri” (1970) [1], “Möhtərəm xalanın təbrikləri” (1970) [1; 5;], “Bülbül kimi”(1974) [1], “Etibarın itməsi” (1975) [1] və s.

Yazıçının məişət hekayələrində mühitin problemləri, adamların məşğuliyyəti, həyat tərzi, doğruluq, düzgünlük, şagirdlərin mənəvi tərbiyəsi, müəllim ləyaqəti və s. məsələlər ön plana çəkilmişdir.

Ə. Şayanın “Qoca kümçü və nəvəsi” [1; 4], “Möhtərəm xalanın təbrikləri” [1;5], “İlk imtahan” [1; 6] əsərləri onun hekayə yaradıcılığında müvəffəqiyyətli irəliləyişini əks etdirən əsərlərdir.

“Qoca kümçü və nəvəsi” [1; 4;] hekayəsi əməyin, zəhmətin təbliğinə həsr edilmişdir.

Burada yazıçı sovet məktəblisinin əmək tərbiyəsini qabarıq verməklə əsərin süjet xəttini daha canlı etmişdir. Ömrünü zəhmətdə, vicdanlı əməklə keçirən qoca kümçü Nuru babanın əməksevər nəvəsi Sadəddinin bəslədiyi tut ağaclarının atlas yarpaqları hesabına çətinliyi aradan qaldırması səhnəsi oxucuda xoş ovqat yaradır.

Əsərin mövzu aktuallığını yüksək qiymətləndirən "Azərbaycan pioneri" qəzetinin redaksiya heyəti bu əsərin şagirdlərin əmək tərbiyəsinə təsirini nəzərə alıb 1959-cu ilin 22 dekabr sayında dərc etmişdir [1;4].

"Möhtərəm xalanın təbrikləri" [1;5] hekayəsində irəli sürülən ideya daha dərin və həyatidir. Hekayədə müəllif saf, vicdanlı həyat şürməyə çalışan insanlarla, harın, başqasının hesabına firavan ömür sürmək istəyən insanların canlı surətini yaratmışdır. Hekayənin baş qəhrəmanı İsrafil uşaqlıqdan yetimliyin acısını dadıb xalasının himayəsində böyümüş bir şəxsdir. O, halal zəhməti hesabına ailəsini dolandırır. Sadə əməyi hər şeydən üstün tutan bu gənc, hətta yüksək vəzifəyə namizəd görülsə belə getmir. İsrafilin rayonda yaşayan xalası Möhtərəm sevinc və fərəh hissi ilə günlərin bir günü onlara qonaq gəlir. Xalanın gəlişi məqsədlidir. Oxucu onun İsrafilə olan münasibətinin səbəbini birbaşa anlaya bilmir. Möhtərəm xalanın təbrikinin əsası və onun təbəssümlərinin saxta olması onun "Kommunist" qəzetinin səhifələrindən oxuduğu: "İsrafil Məmməd oğlu İsrafilov yoldaş Rayon Partiya Komitəsinin birinci katibi seçilmişdir" [1, s. 137; 5] cümləsinin onun bacısı oğlu İsrafilə deyil, başqa şəxsə aid olduğu bilindikdən sonra üzə çıxır. Bacısı oğlugilə bir ay müddətinə qalmağa gələn xala, həmin gün qatarla geri qayıdır.

Müəllif bu qadının şəxsində qohumbazlıq yolu ilə vəzifə əldə edən, şöhrət düşkünlüyünə aludə olan insanların ümumiləşdirilmiş surətini yaratmışır. Hekayə "Şəki fəhləsi" qəzetinin 1970-ciil 11-13 avqust saylarında dərc edilmişdir [1; 5].

Ə.Şayanın hekayə yaradıcılığının ən maraqlı nümunələrindən biri "İlk imtahan" [1; 6] hekayəsidir. Əsərdə müəllif əqidəsinə, idealına sadiq, təmizliyi, düzgünlüyü, ədaləti hər şeydən uca tutub, hətta öz övladına belə güzəştə getməyən bir müəllim surəti yaratmışdır.

Əsərin baş qəhrəmanı Təyyarə texnikum direktoru vəzifəsində çalışır. O, texnikumda keçiriləcək qəbul imtahanının komissiya sədridir. Texnikuma digər gənclərlə yanaşı onun oğlu Ümid də qəbul imtahanı verəcək. Ümidin dostları Rüstəm və Faiq də texnikuma sənəd veriblər və imtahana hazırlaşırlar. İmtahanın gedişinə nəzarət edən və nəticələrini yoxlayan Təyyarə müəllimədir. O, oğlunun yazısını yoxlayanda mütəəssir olur. Onun qarşısında iki yol durur; ya yazını yenidən yazdırıb saxtakarlığa yol verərək təmiz müəllim adına ləkə gətirmək, ya da yazını "2" qiymətləndirməklə obyektiv mövqe tutmaq. Təyyarə müəllimə ədalət yolunu tutaraq oğlunun yazısını "qeyri-kafi" qiymətləndirir və bir müəllim kimi oxucunun gözlərində ucalır. Əsərin ideyası "Səbuhi" ədəbi məclisinin üzvləri tərəfindən yüksək qiymətləndirilərək onların məsləhəti ilə 1960-cı ilin mart ayının 4-də "Nuxa fəhləsi" qəzetinin səhifələrində dərc edilmişdir[1;6;].

İnanırıq ki, Ələşrəf Şayanın bədii irsi gələcəkdə konkret istiqamətdən tədqiq olunacaqdır.

**Məqalənin aktuallığı.** Müraciət olunan mövzu aktual səciyyə daşıyır. Çünki Ələşrəf Şayanın yaradıcılıq yolu ilk dəfədir ki, oxuculara təqdim olunur. Yazıçının elmi-bədii, pedaqoji irsi ilk dəfə olaraq bu sətirlərin müəllifi tərəfindən "Çəhrayı eynəkdən baxma həyata" (Bakı: Elm və təhsil, 2016, 248 s) adı altında tərtib edilərək kitab şəklində nəşr olunmuşdur.

**Məqalənin elmi yeniliyi.** Bu gün milli ədəbiyyatın inkişafını və formalaşmasını təmin edən ən mühüm amil region ədəbiyyatının geniş tədqiq olunmasıdır. Bu baxımdan XX əsr Şəki ədəbi mühitinin istedadlı qələm sahiblərindən olmuş Ə. Şayanın sənət yolunun ilk dəfə

təhlilə cəlb edilməsi məqalənin elmi yeniliyini şərtləndirir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Hər şeydən öncə qeyd etmək lazım gəlir ki, Ə. Şayan gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olan müəllim olmuşdur. Onun şeir və nəsr nümunələri didaktik baxımdan şagird və tələbə oxucuların mənəvi-əxlaqi və vətənpərvərlik tərbiyəsində, Azərbaycan dili ədəbiyyat müəllimlərinin tədris prosesində inteqrativliyin təmin edilməsində mühüm rol oynayacaqdır. Tam orta məktəblərdə summativlərin aparılmasında Ə. Şayanın yaradıcılıq örnəkləri tərbiyə istiqamətləri baxımdan mühüm praktik və elmi dəyər kəsb edəcəkdir.

## Ədəbiyyat


1. Ələşrəf Şayan (Məmmədov). Çəhrayı eynəkdən baxma həyata: şeirlər, hekayələr və məqalələr / Tərtib edəni və "ön söz"ün müəllifi K.F.Adışirinov. Bakı: Elm və təhsil, 2016, 248 s.
2. Ələşrəf Sayan. Durnalar (şeir), "Nuxa fəhləsi" qəz., Nuxa, 1946, 17 mart.
3. Ələşrəf Sayan. Yoldaşlıq (hekayə), "Nuxa fəhləsi" qəz., Şəki,1958, 30 mart.
4. Ələşrəf Sayan. Qoca kümçü və nəvəsi (hekayə), "Azərbaycan pioneri" qəz., 1959, 22 dekabr.
5. Ələşrəf Sayan. Möhtərəm xalanın təbrikləri, hekayə, "Şəki fəhləsi" .qəz, Şəki, 1970, 11-13 avqust.
6. Ələşrəf Sayan. İlk imtahan: hekayə "Nuxa fəhləsi". qəz, Şəki, 1960, 4-6-8 mart.
7. Ələşrəf Sayan. Yoldaşlıq (hekayə), "Nuxa fəhləsi" qəz., Şəki, 1958, 2 aprel.
8. Ələşrəf Sayan. Qızıma (şeir), "Şəki fəhləsi" qəz., Şəki, 1976, 18 noyabr.
9. Ələşrəf Sayan: Sevirəm baharı (şeir), "Lenin bayrağı" qəz., Şəki, 1963, 28 aprel.
10. Ələşrəf Sayan. Neyləyə billəm? (satira), "Lenin bayragı" qəz., Şəki, 1965, 31 mart.
11. Ələşrəf Sayan. Soruş: şeir, "Şəki fəhləsi" .qəz, Şəki, 1975, 15 noyabr.
12. Ələşrəf Sayan. Ərizə: satira. "Şəki fəhləsi". qəz, Şəki, 1975, 7 iyun.
13. Ələşrəf Sayan. Qırxayaq iftixarı : təmsil, "Şəki fəhləsi" .qəz, Şəki, 1975, 23 avqust.
14. Ələşrəf Sayan. Sarı Xurniyin öyünməsi (təmsil), "Şəki fəhləsi" qəz., Şəki, 1976, 22 may.
15. Ələşrəf Sayan. Qızıl Ordu (şeir) "Nuxa fəhləsi" qəz., Şəki, 1940, 16 oktyabr.
16. Ələşrəf Sayan. Azərbaycan (şeir), "Nuxa fəhləsi" qəz., Şəki, 1948, 31 dekabr.
17. Hüseynzadə A. Şeirdə həyatın nəfəsi duyulmalıdır. "İnşaatçı" qəz., 1986, 10 aprel.


**К. Адиширинов**

## Лирическое и эпическое творчество Алешрафа Шаяна

## Резюме

В статье Камиля Адиширинова «Лирическое и эпическое творчество Алешрафа Шаяна» живущего в 40-90-х годах XX века, говорится о характеристике тем и жанров Алешрафа Шаяна в лирическом и эпическом творчестве. Анализируемых на фоне художественных примерах обьясняется качественное мастерства поэта и оживляется Алешраф Шаян как поэт диссидент.

**K. Adıshirinov**

## The lyric and epic creativity of Alashraf Shayan

## Summary

"The lyric and epic creativity of Alashraf Shayan" in so named Kamil Adıshirinov`s article is told about Alashraf Shayans lyric and epic creativity. İn the backround of analized information the poets artistic qualities were valuated with explanation and Alashraf Shayan revived as a dissident poet.

**Redaksiyaya daxil olub:** 24.06.2019